**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SƏMƏDZADƏ AYTƏN ZİYAD qızı**

# ƏHALİNİN İSTEHLAKININ QURULUŞU VƏ ONUN YAXŞILAŞDIRILMASININ SOSİAL-İQTİSADİ AMİLLƏRİ

**5304.01 – "İqtisadi fəaliyyət növləri"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə - 2016**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Menecment və ticarət" kafedrasında yerinə yetirilib.

| | |
|---|---|
| **Elmi rəhbər:** | iqtisad elmləri doktoru, professor,<br>əməkdar elm xadimi<br>**Bəyalı Xanalı oğlu Ataşov** |
| **Rəsmi opponentlər:** | iqtisad elmləri doktoru, professor<br>**Vahid Tapdıq oğlu Novruzov** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Nüşabə Aslan qızı Hacıyeva** |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** |

Müdafiə 26 noyabr 2016-cı il saat $10^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: AZ 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi 64, 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 25 oktyabr 2016-cı il tarixində göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş**
**Dissertasiya şurasının elmi**
**katibi, i.f.d., dosent:** **A.A.Həsənov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müasir dövrdə əhalinin istehlakı, istehlakın tərkibi, keyfiyyəti, bilavasitə həyat səviyyəsinə təsir edən ən mühüm amil kimi dəyərləndirilir. İstehlak həm sosial, həm maddi, həm də siyasi cəhətdən mühüm problem kimi hər zaman əksər dövlətlərin siyasi, iqtisadi fəaliyyətinin aparıcı istiqamətlərindən biri olaraq qalır. İnsanların istehlakı, ona təsir edən amillər bütün dövrlərdə dünyanın bir çox iqtisadçı alimlərinin diqqət mərkəzində olmuş, bu gün də cəmiyyəti düşündürən, narahat edən ən vacib məsələlərdən biri hesab edilir. Çünki istehlaksız həyat mümkün deyil, insan yarandığı gündən istehlak edir. Lakin cəmiyyətlər inkişaf etdikcə, elm və texnologiya tərəqqi etdikcə insanların həyat səviyyəsi dəyişir, istər təbiətin bəxş etdiyi nemətlərdən, istərsə də elmin nailiyyətlərindən istifadə etmək imkanları genişlənir və bu da tələbatların artmasını şərtləndirir. Bu baxımdan bildirmək olar ki, təkmilləşdirilmiş, rasional qida normalarına uyğunlaşdırılmış istehlak həyat səviyyəsinin mühüm amili olaraq onun yüksəlişini, keyfiyyətini təmin etmiş olur.

Hazırkı dövrdə əhali istehlakının təkmilləşdirilməsi istiqamətində qarşıda duran ən başlıca problem insanların keyfiyyətli, ekoloji cəhətdən təmiz ərzaq məhsulları və qeyri-ərzaq malları ilə təminatını yaxşılaşdırmaq, yüksək səviyyəli xidmət sahələrindən istifadəsinə imkan yaratmaqdır. Həyat səviyyəsinin yüksəlməsi, istehlakın quruluşunun təkmilləşməsi Azərbaycan dövlətinin apardığı sosial-iqtisadi siyasətin də əsas məqsədi hesab edilir. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə həyat səviyyəsinin daima yüksəldilməsi, istehlakın yaxşılaşdırılması ilə bağlı irimiqyaslı proqramlar həyata keçirilmiş, güclü iqtisadi qanunvericilik bazası yaradılmış, Azərbaycan Respublikasında sosial yönümlü bazar iqtisadiyyatının qurulmasını təmin edən idarəetmə sistemi formalaşmışdır. Aparılan düşünülmüş dövlət siyasəti nəticəsində ölkədə yoxsulluğun səviyyəsi 2001-ci ildəki 51%-dən hazırda 5%-ə enmiş, əhalinin həyat səviyyəsinin yaxşılaşmasında iştirakı olan sahələrin normal fəaliyyətini təmin etmək məqsədilə 10 mlrd. manatlarla vəsait ayrılmışdır.

Bununla belə, son zamanlar dünya iqtisadiyyatında və geosiyasi aləmdə baş verən proseslər insanların həyat səviyyəsinə və sözsüz ki, istehlakına təsirsiz ötüşməmişdir. Dünya ölkələrində müşahidə olunan inflyasiya və milli pul vahidi - manatın devalvasiyasının birbaşa təsiri nəticəsində insanların real pul gəlirləri azalmış, xarici ölkələrdən idxal olunan məhsulların qiymətlərində müşahidə olunan artım bilavasitə insanların istehlakına və həyat səviyyəsinə bir qədər mənfi təsir etmişdir.

Hazırda Azərbaycan Respublikasının Prezidentinin bilavasitə rəhbərliyilə iqtisadi siyasətin daha miqyaslı və keyfiyyətli aparılması məqsədilə qlobal çağırışları, riskləri də nəzərə almaqla dövlət tərəfindən əhəmiyyətli

strateji proqram və konsepsiyalar hazırlanır, qeyri-neft sektorunun şaxələnmiş şəkildə inkişaf etdirilməsi, yerli istehsalın stimullaşdırılması, kiçik və orta sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, aqrar sahəyə dotasiyaların, subsidiyaların verilməsi, ölkədə sosial-iqtisadi sabitliyin qorunması və etibarlı ərzaq təminatının yaradılması istiqamətində böyük işlər görülür.

Yuxarıda qeyd etdiyimiz məqamlar tədqiqat mövzusunun mühüm əhəmiyyət kəsb etdiyini və obyektiv zərurətdən irəli gəldiyini göstərir və əhalinin həyat səviyyəsinə, istehlaka, onun quruluşuna birbaşa təsir edən amil kimi əhalinin pul gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılması, yeni iş yerlərinin açılması və insanların işlə təmin olunması, sosial-mənzil şəraitinin yaxşılaşdırılması, keyfiyyətli səhiyyə, təhsil xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi kimi vacib məsələlərin elmi araşdırılmasını əhəmiyyətli dərəcədə aktuallaşdırır, tədqiqat mövzusunun seçilməsini şərtləndirir.

**Problemin öyrənilməsi vəziyyəti.** Əhalinin istehlakı, istehlakın tərkibi, keyfiyyəti, kəmiyyəti bilavasitə həyat səviyyəsinə təsir edən ən mühüm amillər kimi bütün dövrlərdə dünyanın bir çox iqtisadçı alimlərinin diqqət mərkəzində olmuşdur. Bu haqda K.Marks, F.Engels, E.Bem-Baverk, A.Smit, A.Marşall, J.B.Sey, D.Rikardo, C.Keynsin dəyərli fikirləri bu gün də öz əhəmiyyətini və aktuallığını saxlamaqdadır. Müasir dövrümüzün iqtisadçıları S.S.Şatalin, N.M.Rimaşevskaya, L.Y.Maneviç, V. K.Sençaqov, L.İ.Abalkin və başqaları əhalinin həyat səviyyəsinə təsir edən amilləri araşdırmış, öz əsərlərində bu problemlərə daha çox yer vermişlər.

Ötən əsrin 60-70-ci illərində Azərbaycanın iqtisadçı alimləri Mədət Allahverdiyev, Aqil Əliyev, Şamil Xudiyev, Tofiq Quliyev, Adil Qasımov, Asif Şirəliyev, Arif Şəkərəliyev, İsmayıl Feyzullabəyli, Faiq Hacıbəyov, Fuad Mürşüdlü, Maksim Abramov, Əmirxan Babaşovun bu gün üçün də öz əhəmiyyətini itirməyən tədqiqatlarında demoqrafik inkişaf və məşğulluq, əhalinin maddi həyat səviyyəsi, onun göstəricilərinin dinamikası, məişət xidməti, mənzil tikintisi kimi məsələlələrin təhlili xüsusi yer tutmuşdur.

SSRİ-nin dağılması nəticəsində yaranmış müstəqil dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında azad bazar münasibətlərinin, yeni iqtisadi sistemin yaradılması məqsədilə həyata keçirilən iqtisadi, siyasi islahatlar əhalinin həyat səviyyəsinin yeni prinsiplər, yanaşmalar əsasında formalaşması prosesinə ciddi təsir etdi. Xüsusi mülkiyyətin tamhüquqlu mülkiyyət forması kimi təsbit olunması, qiymətlərin liberallaşması əhalinin həyat səviyyəsinə, milli iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin inkişafına, iqtisadi fəallığa, ərzaq təhlükəsizliyinə, istehlak strukturunun təkmilləşdirilməsinə, işsizlik, yoxsulluğun miqyasına təsir edən amillərin öyrənilməsini ön plana çəkdi. İqtisadçı alimlər Ziyad Səmədzadə, Şahbaz Muradov, Əli Əlirzayev, Əli Nuriyev, Səlim Müslümov, Akif Musayev, Eldar Quliyev, Qorxmaz İmanov, Vahid Novruzov, Rəsul Balayev, İslam

İbrahimov, Eldar İbrahimov, Famil Mustafayev, Bəyalı Ataşov, Maqsud Qasımov, Afət Əhmədov, Gəncəli Gənciyev, İsa Aliyev, Məhərrəm Hüseynov, Elşən Hacızadə, Xatirə Hüseynova, Pəri Həsənova, Vahid Abbasov, Natiq Cavadov, Oqtay Məmmədli, Nüşabə Hacıyeva, Möhübbət Hüseynov və başqaları iqtisad elminin yuxarıda göstərilən istiqamətləri və məsələləri barədə həm nəzəri-metodoloji, həm də makro və mikro iqtisadiyyat baxımından dəyərli tədqiqatlar aparmışlar.

Bununla belə, qlobal dünya iqtisadiyyatında sarsıntıların davam etdiyi bir dövrdə Azərbaycan Respublikasında iqtisadiyyatın dinamik inkişafı, xüsusilə də qeyri-neft sektorunun diversifikasiyası istiqamətində atılan addımlar keyfiyyətli həyat səviyyəsinin təmin edilməsi prosesinin elmi əsaslarının daha da möhkəmləndirilməsini obyektiv zərurətə çevirir. Əhalinin istehlakı, onun quruluşunun təkmilləşdirilməsi ilə bağlı əvvəlki tədqiqatlarda kifayət qədər öyrənilməmiş bir sıra məsələlərin, o cümlədən istehlak bazarının yeni meyarlar əsasında qiymətləndirilməsinə, əhalinin pul gəlirlərinin strukturunun sistemli təhlilinin aparılmasına, sahibkarlıqdan daxil olan gəlirlərin artırılmasına, istehlak qiymətlərinin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinə, ev təsərrüfatlarının gəlirlərə görə fərqlərinin yumşaldılmasına, əhalinin həyat səviyyəsində əməkhaqqının rolunun artırılmasına, məşğulluğa əlverişli şərait yaradılmasına, regionlar üzrə həyat səviyyəsindəki fərqlərin yumşaldılması baxımından istehlakın quruluşunun yaxşılaşdırılması problemlərinin müasir çağırışlar baxımından ciddi araşdırılmasına ehtiyac yaranmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan əhalisinin ərzaq istehlakının quruluşu və onun yaxşılaşdırılmasının elmi-nəzəri əsaslarının araşdırılmasından, istehlakın mövcud durumunun ətraflı təhlil edilməsindən, onun strukturunun təkmilləşdirilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin hazırlanıb irəli sürülməsindən ibarətdir.

Qarşıya qoyulan məqsədə müvafiq olaraq tədqiqat işində aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

– əhalinin real gəlirləri ilə nominal pul gəlirlərinin dinamikasındakı fərqlərin səbəblərinin araşdırılması, pul gəlirlərinin artırılmasının əsas istiqamətlərinə dair təkliflərin irəli sürülməsi;

– ölkənin müstəqillik illərində istehlak bazarı, onun quruluşunda baş verən dəyişikliklərlə əhalinin keyfiyyətli həyat səviyyəsi, istehlakın quruluşu, sistemli təhlilin aparılması, istehlak bazarının genişlənməsi və onun bölmələri arasındakı nisbətin qiymətləndirilməsi;

– dövlət büdcəsi vasitəsilə əhalinin həyat səviyyəsi, onun əsas göstəricilərinin yaxşılaşmasına yönəlmiş vəsaitlərin dinamikasının təhlilinin aparılması;

– bazar dəyişiklikləri şəraitində əhalinin həyat səviyyəsinin dəyişməsinə təsir edən əsas amillərin müəyyənləşdirilməsi;

–əhalinin istehlakının regionlar üzrə fərqləndirilməsini şərtləndirən amillərin aşkar edilməsi, bu fərqlərin yumşalmasını təmin edəcək iqtisadi inkişaf imkanlarının tədqiqi;

–iqtisadi inkişaf səviyyəsi ilə əhalinin həyat səviyyəsi, istehlakın quruluşu arasındakı qarşılıqlı əlaqə və asılılıq barədə beynəlxalq təcrübənin öyrənilməsi;

–əhalinin istehlakında sağlam qidalanmanın, xüsusilə də istehlakda ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsullarının xüsusi çəkisinin artırılması imkanlarının araşdırılması, bu istiqamətdə təklif və tövsiyələrin işlənib hazırlanması;

–ev təsərrüfatlarının materialları əsasında əhalinin təhsil səviyyəsi ilə həyat səviyyəsi və istehlakı arasında qarşılıqlı əlaqə və asılılığın tədqiqi.

**Tədqiqatın obyekti** kimi Azərbaycan Respublikasında əhalinin həyat səviyyəsi və istehlakı məsələləri ilə məşğul olan dövlət, bələdiyyə və özəl təsərrüfat subyektləri seçilmişdir.

**Tədqiqatın predmetini** respublika əhalisinin real və nominal pul gəlirlərinin artmasının maddi əsasları, istehlak səviyyəsi və quruluşunun təkmilləşdirilməsi, həyat səviyyəsinin əsas göstəricilərinin yaxşılaşdırılması istiqamətlərinin müəyyən edilməsi məsələləri təşkil edir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikasının iqtisadi və sosial inkişafına dair təsdiq olunmuş dövlət proqramları, bu sahədə Azərbaycan, MDB ölkələrinin 2000-2015-ci illəri əhatə edən statistik məcmuələri, beynəlxalq qurumların, o cümlədən, BMT, Dünya Bankı, Beynəlxalq Valyuta Fondunun illik hesabatları, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Təhsil Nazirliyinin materialları təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsaslarını** Azərbaycan Respublikası Prezidentinin əhalinin həyat səviyyəsi, demoqrafik inkişaf, yoxsulluğun azaldılması, məşğulluq strategiyası, ölkənin iqtisadi-sosial inkişafı ilə bağlı fərman və sərəncamları, bunlardan irəli gələn hökumətin və Milli Məclisin müvafiq qərarları, həmçinin əhalinin həyat səviyyəsi, onun istehlakı, geniş təkrar istehsal, məşğulluq, əmək bazarına dair məsələlərə münasibətləri əks etdirən iqtisadi nəzəriyyə, dünya iqtisad elminin klassiklərinin, görkəmli xarici və respublika alimlərinin əsərləri, iqtisadi və sosial məsələlərə dair ölkə qanunvericiliyi təşkil edir.

Dissertasiya işində şəxsi müşahidə, müqayisə, sistemli, məntiqi, iqtisadi-statistik təhlil və digər üsul və metodlardan istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- milli iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinə müvafiq olaraq həyat səviyyəsində, xüsusilə də istehlakda,

onun quruluşunda baş verən dəyişikliklərin sistemli təhlili aparılmış, keyfiyyətli yaşayış tərzinin təmin edilməsinin başlıca amillərinə dair yeni elmi əhəmiyyətli fikir və mülahizələr irəli sürülmüşdür;

- strateji yol xəritəsinin başlıca istiqamətlərinin əhalinin həyat səviyyəsinə, istehlakın quruluşunun təkmilləşdirilməsinə təsiri haqqında əməli əhəmiyyət kəsb edən təkliflər hazırlanmışdır;
- əhalinin pul gəlirləri, onun quruluşunda baş verən dəyişikliklərin, bu dəyişiklikləri müəyyən edən amillərin kompleks təhlili aparılmış və müvafiq nəticələr əldə edilmişdir;
- pul gəlirlərinin, onun quruluşunun formalaşması, ev təsərrüfatlarının qrupları üzrə diferensiallaşması qiymətləndirilmiş, yaxın perspektiv üçün müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür;
- respublika və onun regionları üzrə ev təsərrüfatlarının gəlir və xərcləri, onların quruluşunun müqayisəli kompleks təhlili aparılmış, bu təsərrüfat subyektlərinin ölkənin sosial-iqtisadi inkişafında rolunun artırılmasının başlıca istiqamətləri müəyyənləşdirilmişdir;
- əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, istehlakın quruluşunda sağlam qidalanmanın əsaslarının möhkəmləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ekoloji cəhətdən təmiz məhsul istehsalının artırılması imkanları aşkar edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyanın əsas müddəaları, alınmış nəticələr, tədqiq edilən təklif və tövsiyələr əhalinin keyfiyyətli həyat səviyyəsinə, onun istehlakının quruluşunun yaxşılaşdırılması ilə bağlı cari dövr və perspektivdə həyata keçiriləcək layihə və proqramlarda öz əksini tapa bilər. Dissertasiyanın bir çox müddəaları, xüsusilə də istehlak bazarının səmərəlilik göstəricilərinin yaxşılaşdırılması, əhalinin istehlakında ekoloji cəhətdən təmiz məhsulların rolunun artırılması, əsas istehlak mallarının qiymətlərinin tənzimlənməsi, milli iqtisadiyyatın, aqrar sektorun davamlı inkişafının kənd əhalisinin həyat səviyyəsinə təsiri və s. ilə bağlı təkliflər ayrı-ayrı iqtisadi fənlərin tədrisində, iqtisadçı kadrların hazırlanması prosesində istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə olunması.** Dissertasiyanın əsas müddəaları və nəticələri ümumi həcmi 8,6 ç.v. olan, iddiaçı da daxil olmaqla müəlliflər kollektivi tərəfindən hazırlanmış 3 kitabda, 12 məqalədə, həmçinin beynəlxalq, respublika elmi-əməli konfransların materiallarında öz əksini tapmışdır. Tədqiqat işinin əsas nəticələri Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi tərəfindən istifadə edilmək üçün qəbul olunmuşdur (20 sentyabr 2016-cı il tarixli 31/15-591A saylı arayış).

Müəllifin 2002-2015-ci illərdə KİV-də əhalinin istehlakı, istehlakın quruluşunun yaxşılaşdırılması və bu amilin əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təsirinə dair 127 yazısı çap edilmişdir.

Dissertasiya işi giriş, üç fəsil, nəticə bölməsi və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla 148 səhifədə yazılmışdır. İşdə 9 diaqram, 36 cədvəl verilmişdir.

## Tədqiqatın əsas məzmunu

Dissertasiyanın **"Əhalinin istehlak strukturu və istehlak xərclərinin nəzəri-metodoloji əsasları"** adlanan **birinci fəslində** istehlak, istehlak xərcləri, onların mahiyyəti, xüsusiyyətləri, əhalinin həyat səviyyəsində tutduğu yer barədə iqtisadi baxışlara, yanaşmalara münasibət bildirilir. Göstərilir ki, istehlaka həm iqtisadi, həm də tibbi baxımdan yanaşmalar olmalı və onun bütün hallarda sistemli təhlili aparılmalıdır.

İstər müasir, istərsə də klassik iqtisadi nəzəriyyələrdə istehlaka təkrar istehsalın son fazası kimi baxılır (istehsal, bölgü, mübadilə, istehlak) və onun səviyyəsi, dəyişilmə meyilləri hər bir ölkənin iqtisadi, sosial inkişafı barədə müvafiq qiymətləndirmələr aparmağa əsas verir. Dünya təcrübəsi sübut edir ki, ölkə inkişaf etdikcə onun ümumi daxili məhsulunda son istehlakın xüsusi çəkisi də artmağa meyil edir. Bu meyil Azərbaycan Respublikasında da özünü göstərir. 2005-ci ildə faktiki son istehlakın həcmi ÜDM-in 50 faizini, 2015-ci ildə isə 68 faizini təşkil etmişdir.

Əhalinin həyat səviyyəsinin yüksəldilməsi kimi strateji məqsədin diqqətdə saxlanılması bir sıra məsələlərin, o cümlədən əhalinin gəlir və xərclər balansının tərtibi, istehlak büdcəsi, istehlak səbəti, ərzaq məhsulları və qeyri-ərzaq malları göstəricilərindən geniş istifadə edilməsini əhəmiyyətli dərəcədə aktuallaşdırır.

Tədqiqat işində son 15 ildə ölkədə istehlak bazarı, onun quruluşunda baş verən dəyişikliklər təhlil edilir və göstərilir ki, istehlak bazarı real iqtisadiyyatda pərakəndə ticarət, ictimai iaşə və pullu xidmətləri əhatə edir. Araşdırmalardan belə bir nəticə də çıxır ki, qeyri-bazar xətti ilə ev təsərrüfatları xeyli miqdarda məhsul istehsal edir və özünün istehlakının müəyyən hissəsini bu vasitələrlə ödəyir. Ona görə də məhsul buraxılışı və xidmətlərin hər iki bazasının düzgün hesablanması vacib məsələlərdən biridir.

Ölkədə son 15 ildə istehlak bazarının həcmi 13 dəfə, pərakəndə ticarət 10 dəfə, ictimai iaşə 60 dəfə, pullu xidmətlər 15,6 dəfə artmışdır. Cəmiyyət inkişaf etdikcə, əhalinin həyat səviyyəsinin, eyni zamanda, istehlak bazarının quruluşu da dəyişir. 2000-2015-ci illərdə istehlak bazarının quruluşunda pərakəndə ticarətin xüsusi çəkisi 80,9%-dən 75%-ə enmiş, ictimai iaşənin xüsusi çəkisi 0,7%-dən 3,2%-ə, pullu xidmətlərin xüsusi çəkisi 18,4%-dən 21,8%-ə yüksəlmişdir.

2015-ci ildə hər nəfərə düşən pərakəndə ticarət dövriyyəsinin həcmi 2700 manat təşkil etmişdir ki, bu da 2005-ci ilə nisbətən 5,5 dəfədən çox artım deməkdir. Ümumi ticarətin 50%-i ərzaq, 50%-i isə qeyri-ərzaq mallarının payına düşmüşdür. Bu nisbət 2000-ci ildə 71,2 və 28,8%, 2005-ci ildə 67,5% təşkil etmişdir (şəkil1).




Şəkil 1. Pərakəndə ticarət dövriyyəsində ərzaq və qeyri-ərzaq məhsullarının xüsusi çəkisi

Dissertasiyada əhalinin həyat səviyyəsi göstəricilərinin formalaşmasında müstəsna rol oynayan istehlak bazarının əsas parametlərinin təhlili belə bir fikir söyləməyə əsas verir ki, Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişaf proqramlarının uğurla reallaşması nəticəsində ölkənin istehlak bazarının maddi-texniki bazası infrastruktur baxımından əhəmiyyətli dərəcədə möhkəmlənmişdir ki, bu da əhalinin alıcılıq qabiliyyətinin davamlı artmasını təmin etmək nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir.

Bu fəsildə həmçinin istehlak bazarlarında qiymət və onun əhalinin istehlakının quruluşuna təsiri məsələləri araşdırılır. Burada, ilk növbədə klassik iqtisadi nəzəriyyəyə əsaslanaraq qiymətin mahiyyəti, qiymətin formalaşmasında əsas elementlərdən biri hesab edilən istehlak xərcləri, rəqabət mühitinin təsiri, istehlak qiymətləri indeksi, qiymətlərin dövlət tərəfindən tənzimlənməsi məsələləri tədqiq edilir. Qiymətin dövlət tənzimlənməsi ən mühüm əmtəə qruplarının qiymətlərinin müəyyən məqbul səviyyədə saxlanılması ilə bağlı tədbirləri nəzərdə tutur. Bu tədbirlərə qiymət və qiymətin əmələ gəlməsi ilə əlaqədar qiymət siyasətinin müəyyən edilməsi, qanunvericilik aktlarının qəbulu, inflyasiyanın cilovlanması üçün atılan addımları aid etmək olar. Bəzən bazarda qiymət ayrı-seçkiliyi hallarına təsadüf edilir, yəni eyni məhsulun yaxın bir ərazidə - bir rayon, şəhər daxilində müxtəlif satış yerlərində fərqli qiymətlərlə satılması hallarına rast gəlmək mümkün-

dür. Belə yanaşma, əlbəttə, müəyyən mənada düz deyildir və bu kimi hallar əksər hallarda istehlakçıların hüquqlarının pozulması kimi qiymətləndirilir.

Statistik materialların təhlili göstərir ki, 2000-2015-ci illərdə respublikada əsas istehlak məhsullarının qiymətlərinin ümumi səviyyəsində sıçrayışlı artım müşahidə edilməmişdir. Lakin şəhərlər üzrə göstəricilər respublika üzrə göstəricilərdən müəyyən dərəcədə fərqlənir. Məsələn, digər rayonlara və şəhərlərə nisbətən artım Mingəçevir, Xaçmaz şəhərləri və Abşeron rayonunda müşahidə edilmişdir ki, bu da istehsalın, eyni zamanda, bu bölgəyə gələn turistlərin sayının artımı ilə bağlıdır. Bu kimi meyillər Şəki-Zaqatala iqtisadi rayonunda özünü göstərir.

Azad bazar münasibətləri şəraitində qiymətlərin müəyyən edilməsi tələb və təklifə əsaslanmalıdır. Bununla belə, dövlət hələ bir müddət qiymət tənzimlənməsi üsullarından da istifadə edəcəkdir ki, bu da mütərəqqi dünya təcrübəsində sübut edildiyi kimi, obyektiv əsaslara malikdir və ilk növbədə əhalinin həyat səviyyəsi göstəricilərinin neqativ təsirlərdən qorunması üçün məqsədəuyğundur.

Dissertasiyada son 15 ildə əhalinin istehlakı ilə bağlı ixrac, idxal qiymətlərinin dəyişilməsi və bu dəyişikliklərin qiymətləndirilməsinə cəhd edilmişdir. Bu 15 ildə Azərbaycanın xarici ticarət dövriyyəsi dəfələrlə artmışdır ki, onun da əsas hissəsi neft-qaz sənayesinin payına düşür. Son illər ölkədə qeyri-neft sektorunun inkişafı və onun məhsullarının ixracının artması ilə bağlı işlər görülür ki, bu da idxala öz təsirini göstərmişdir. Bununla belə, ölkəyə xeyli miqdarda ərzaq, xüsusilə də qeyri ərzaq məhsulları daxil olur. Bu istehlak mallarının qiymətləri həmişə sabit olmadığından daxili bazar qiymətlərinə təsir edir.

Cədvəl 1.

Azərbaycan Respublikası üzrə idxal və ixrac olunan malların qiymət indeksləri (əvvəlki ilə nisbətən, faizlə)

| | 2010 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|
| İdxal olunan malların məcmu və qrupları üzrə indeksləri | | | | |
| Bütün mallar üzrə | 104,2 | 101,8 | 100,4 | 100,9 |
| İstehlak malları | 104,5 | 100,3 | 101,5 | 99,0 |
| O cümlədən | | | | |
| Qısa müddət üçün nəzərdə tutulan | 102,8 | 102,0 | 103,4 | 98,9 |
| Uzun müddət üçün nəzərdə tutulan | 103,9 | 98,2 | 99,3 | 99,2 |
| İxrac olunan malların məcmu və qruplar üzrə indeksləri | | | | |
| Bütün mallar üzrə | 130,7 | 95,5 | 92,9 | 54,9 |
| İstehlak malları | 105,8 | 98,2 | 99,1 | 97,9 |
| O cümlədən | | | | |
| Qısa müddət üçün nəzərdə tutulan | 101,4 | 97,7 | 99,4 | 98,0 |

| | | | | |
|---|---|---|---|---|
| Uzun müddət üçün nəzərdə tutulan | 102,6 | 103,4 | 93,2 | 94,3 |

Apardığımız müqayisəli təhlildən aydın olur ki, 2005-2015-ci illərdə ölkəyə idxal olunan qısamüddətli, eləcə də uzunmüddətli istifadə üçün gətirilən malların qiymətində xeyli artım müşahidə edilmişdir ki, bu da əhalinin həyat səviyyəsinə, təbii ki, təsir edir.

Eyni zamanda, təhlil göstərir ki, respublikadan ixrac olunan məhsulların qiymət indeksi son 2 ildə azalmağa meyil edir (cədvəl 1). Ona görə də hazırda idxalın azaldılması, istehlak xərclərinin quruluşunda əhəmiyyətli yer tutan toxuculuq, geyim, dəri və dəri məmulatlarının, ayaqqabı istehsalının genişləndirilməsi və onların keyfiyyətinin yüksəldilməsi ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün daha intensiv və səmərəli tədbirlərin görülməsi vacib sayılır.

**Dissertasiyanın istehlak strukturunun təkmilləşdirilməsi ilə həyat səviyyəsinin yüksəldilməsi arasındakı qarşılıqlı əlaqə və asılılıqların araşdırılmasına həsr edilən II fəslində** əhalinin gəlirləri, real gəlirləri, onun quruluşu təhlil edilir, gəlirlərin səviyyəsi, əhalinin müxtəlif qrupları, bir qrup daxilində də fərqlənməsi səbəbləri açıqlanır, gəlirlərin səviyyəsindəki dəyişikliklərin tələb və təkliflə, bazar subyektlərinin fəaliyyətinə təsir edən digər amillərlərlə əlaqəli olduğu qeyd edilir.

Tədqiqat işində ev təsərrüfatlarının əsas göstəriciləri, o cümlədən onların həcmi, pul gəlirlərinin dinamikasındakı meyillər qiymətləndirilir. Bildirilir ki,  ev təsərrüfatı üzrə hər nəfərə düşən pul gəlirləri 2005-2015-ci illərdə 3,8 dəfə artmış, pul gəlirlərinin qurluşunda xeyli keyfiyyət dəyişiklikləri baş vermişdir. 2015-ci ildə ev təsərrüfatlarının gəlirlərinin 59,1%-i məşğulluq və özüməşğulluqdan, 13,4%-i kənd təsərrüfatı fəaliyyətindən, 15,8%-i pensiya və sosial müavinətlərdən daxil olmuşdur (şəkil 2).

Müsbət dəyişikliklərdən biri də odur ki, pul gəlirlərinin quruluşunda əmək gəlirlərinin xüsusi çəkisi artmağa meyil etmişdir. Yeni yaradılan iş yerləri, əmək müqavilələrinin bağlanması dairəsinin genişlənməsi, əmək haqqının artması ilə bağlı tədbirlər bu mənbənin gələcəkdə də mühüm əhəmiyyət kəsb edəcəyini qeyd etməyə əsas verir.

Dissertasiyada yaşayış yerləri üzrə ev təsərrüfatının gəlirlərinin təhlili aparılmış və göstərilmişdir ki, 2014-cü ildə kənd yerlərində ev təsərrüfatlarının payına respublika üzrə ev təsərrüfatlarının cəmi pul gəlirlərinin 26%-i düşür. Fikrimizcə, əhalinin 40%-dən çox hissəsinin kənddə məskunlaşdığı şəraitdə bu rəqəm aşağıdır. Ona görə də kəndlinin istehsal etdiyi məhsulun maneəsiz bazara çıxarılmasında mövcud olan əngəllərin aradan qaldırılması, marketinq xidmətinin yaxşılaşdırılması istiqamətində daha fəal işlər aparılmalıdır. Kənd təsərrüfatı məhsulları istehsalına çəkilən xərclərin düzgün uçota alınması, kənd təsərrüfatına göstərilən texniki xidmət-

lərə, onların qiymətinə nəzarət mexanizminin təkmilləşdirilməsi istehsalın gəlirliliyini xeyli artıra bilər. Qeyd etmək lazımdır ki, ildən-ilə bazarda yerli ərzaq məhsullarının satışı artır. Amma onun da şahidi oluruq ki, bəzi eyni adlı yerli və xarici kənd təsərrüfatı məhsullarının qiymətində xeyli fərqlər var. Bəzi yerli kənd təsərrüfatı məhsulları qiymət məhsulları məsələsində rəqabətə dözmür, bu da ev təsərrüfatının gəlirlərinə təsir edir.




Şəkil 2. Azərbaycan Respublikasında ev təsərrüfatlarının gəlirlərinin quruluşu

Hazırda ölkənin müəyyən edilmiş inkişaf strategiyasına uyğun olaraq, aqrar sektorun, onun mühüm sahələri hesab edilən pambıqçılıq, üzümçülük, baramaçılıq, çayçılıq, fındıq, qoz, zeytun istehsalının inkişafı ilə əlaqədar mühüm işlər görülür ki, bütün bunlar da, heç şübhəsiz ki, kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsinə öz  müsbət təsirini göstərəcəkdir.

İndi respublikada kənd təsərrüfatının inkişafı ilə əlaqədar olaraq ciddi tədbirlər həyata keçirilir, kənd təsərrüfatı məhsulları istehsalçılarına xeyli güzəştlər edilir. Təkcə onu göstərmək olar ki, kənd təsərrüfatı torpaq vergisindən başqa bütün vergilərdən azaddır. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə məhsul istehsalçılarına bir milyard manatdan çox güzəştli kreditlər verilmişdir.

Əhalinin real gəlirləri dedikdə, bir qayda olaraq, əhalinin cəmi pul gəlirlərindən cari dövrün məcburi ödəmələri və köçürmələri çıxdıqdan sonra yerdə qalan hissəsi başa düşülür. Dünya təcrübəsi göstərir ki, əksər hallarda əhalinin pul gəlirlərinin artımı real gəlirlərin artımını üstələyir. Bu meyil respublikamız üçün də xarakterikdir. 2000-2015-ci illərdə əhalinin  pul gəlirləri 10 dəfə, real gəlirlər isə 4,2 dəfə artmışdır. 2005-2015-ci illərdə or-

ta aylıq əməkhaqqının artımı da real əməkhaqqının artımını üstələmişdir: əməkhaqqı 3,7 dəfə, istehlak qiymətləri isə 1,93 dəfə artmışdır.

Müqayisəli təhlillər onu da göstərir ki, Azərbaycanda əhalinin pul gəlirlərinin sürətlə artması bu göstəricinin səviyyəsinə görə Rusiyadan gerilik fərqinin xeyli azalmasını təmin etmişdir. Belə ki, respublikamız 2010-cu ildə hər nəfərə düşən pul gəlirlərinin səviyyəsinə görə (ABŞ dolları) Rusiyadan 2,1 dəfə geri qalırdısa, 2015-ci ildə bu rəqəm 1,4 dəfə təşkil etmişdir. Əməkhaqqının dollarla ifadə olunmuş səviyyəsinə görə respublikamız MDB məkanında 2000 və 2005-ci illərdə dördüncü yerdə, 2014-cü ildə isə Rusiya və Qazaxıstandan sonra III yerdə olmuşdur. Respublikamızda əhalinin hər nəfərinə düşən pul gəlirlərinin dollar ifadəsində azalması 2015-ci ilə təsadüf edir ki, bu da manatın devalvasiyaya uğraması ilə əlaqədar olmuşdur.

Dissertasiyada 2005-2015-ci illərdə orta aylıq əməkhaqqının sahələr üzrə səviyyəsinə münasibət bildirilir, həmçinin iqtisadiyyatın ayrı-ayrı sahələrində dövlət və özəl sektorda muzdla işləyənlərin orta aylıq əmək haqqının fərqli olması səbəbləri araşdırılır (cədvəl 2).

Cədvəl 2.

Bəzi iqtisadi fəaliyyət növləri üzrə orta aylıq nominal əməkhaqqının səviyyəsi (ölkə iqtisadiyyatı üzrə orta göstəriciyə nisbətən, faizlə)

| İllər | 2005 | 2010 | 2014 | 2015 |
|---|---|---|---|---|
| İqtisadi fəaliyyət növləri | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 33,7 | 48,4 | 54,3 | 52,6 |
| Mədənçıxarma sənayesi | 410,5 | 303,1 | 394,6 | 465,0 |
| Emal sənayesi | 93,8 | 96,7 | 111,5 | 113,1 |
| Tikinti | 188,7 | 152,6 | 141,0 | 145,1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 97,1 | 85,3 | 84,1 | 81,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 100,8 | 119,2 | 119,3 | 123,3 |
| İnformasiya və rabitə | 165,7 | 160,3 | 165,4 | 160,0 |
| Maliyyə və sığorta fəaliyyəti | 252,2 | 298,7 | 269,7 | 259,3 |
| Peşə, elmi və texniki fəaliyyət | 262,5 | 178,6 | 150,7 | 161,1 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 108,3 | 113,6 | 107,9 | 106,0 |
| Təhsil | 53,4 | 82,0 | 67,0 | 64,5 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 36,6 | 46,8 | 44,5 | 43,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 41,6 | 62,9 | 56,3 | 54,1 |

Əməkhaqqının kişilər və qadınlara görə səviyyəsinin müqayisəli təhlili göstərir ki, bir sıra sahələr üzrə kişilərin əməkhaqqı qadınların əmək haqqına nisbətən yüksəkdir. Bəziləri bunu gender bərabərliyinin pozulması ilə izah etsələr də, bu fikirlə razılaşmaq olmaz.

Dissertasiyada statistik, iqtisadi informasiya materiallarına əsaslanaraq, ayrı-ayrı ölkələr, Azərbaycan, onun regionları üzrə ev təsərrüfatlarının iqtisadi, sosial vəziyyətini xarakterizə edən göstəricilər təhlil edilmiş və müvafiq nəticələr çıxarılmışdır. Apardığımız bu müqayisəli təhlil onu da sübut edir ki, hər bir ölkə digər ölkədən istehlak qiymətləri indeksinin müxtəlifliyi, dövlət büdcəsindən daxilolmaların həcminə görə fərqlənir. İnkişaf səviyyəsi yüksək, gəlirli ev təsərrüfatlarının sosial nəticələri də müsbət olur, (uzunömürlülük, səhiyyənin inkişafı, ölümə ən çox səbəb olan xəstəliklərin xüsusi çəkisinin aşağı olması, bir yaşa qədər uşaqlar arasında ölümün olmaması və s). Birinci qrup ölkələrin digər dünya ölkələrindən adambaşına düşən ÜDM-in səviyyəsinə görə ciddi fərqlənməsi onların həyat səviyyəsindəki fərqlərin də kəskin olması ilə xarakterizə olunur. Son zamanlar iqtisadi ədəbiyyatlarda haqlı olaraq aşağıdakı fikir üstünlük təşkil edir: *həyat səviyyəsi* dedikdə əhalinin gəlirləri, maddi və mədəni nemətlər istehlakı ilə yanaşı, demoqrafik vəziyyəti, əmək qabiliyyətli əhalinin iş və məişət şəraiti, təhsil, sağlamlıq, insanın mədəni həyatının və istirahətinin təşkili, ölkədə elmi-texniki inkişaf, ekoloji vəziyyətin sağlamlığa təsiri və s. nəzərə alınır.

Son 15 ilin materialları əsasında apardığımız təhlil onu da göstərir ki, postsovet məkanında olan yeni müstəqil dövlətlərdə əhalinin gəlir və xərclərinin səviyyəsi və quruluşu Avropanın inkişaf səviyyəsi yüksək olan ölkələrindən xeyli fərqlənir.

Azərbaycanda istehlak xərclərinin quruluşunda qeyri-ərzaq mallarının alınmasına cəmi xərclərin 17,4%-i, Belorusda 35,7%-i, Qırğızıstanda 28,5%-i, Qazaxıstanda 31,4%-i, Tacikistanda 30%-i sərf edilmişdir. Xidmətlərlə bağlı xərclərə gəldikdə isə Azərbaycanda bu növ xərclər cəmi istehlak xərclərinin 41,4%-ni təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, bu rəqəm Belorusda 20,2%, Rusiyada 26,3%, Ukraynada 20,5%, Qırğızıstanda 18,7%, Tacikistanda 14,3%, Qazaxıstanda 22,9% olmuşdur.

Dissertasiyada ev təsərrüfatlarının istehlak xərclərinin səviyyə və quruluşunda baş verən dəyişikliklər təhlil edilir, müvafiq qiymətləndirmələr aparılır.

Ev təsərrüfatlarının pul xərcləri bilavasitə gəlirlərlə bağlı olub, onların həyat fəaliyyətinin və iş qabiliyyətinin davam etdirilməsi üçün vacib olan maddi nemətlərin və xidmətlərin əldə edilməsinə yönəldilən faktiki məsrəflərdir. Bura istehlak xərcləri və istehlakla bilavasitə əlaqəsi olmayan xərclər daxildir. Onlar ev təsərrüfatının üzvlərinin iş qüvvəsinin təkrar istehsalında əsas rol oynayırlar.

Ev təsərrüfatlarının xərclərinin dinamikası ümumilikdə ölkə iqtisadiyyatının əsas göstəricilərinə bilavasitə təsir edir. Belə ki, onlar öz gəlirlərindən xərcləyərək əmtəə və xidmət bazarını formalaşdırır və inkişaf etdirirlər.

Öz yığım və əmanətlərini reallaşdıraraq qiymətli kağızlara tələbatı artırır, banklarda əmanət portfelinin genişlənməsində böyük rol oynayırlar. Bundan başqa, onlar istehsal amillərini - əmək və sahibkarlıq qabiliyyətini təklif edirlər. Nəhayət, ev təsərrüfatlarının ailə üzvləri uşaqların tərbiyəsi və təhsili ilə məşğul olaraq məktəbəqədər, orta və ali təhsil sisteminin xidmətlərindən istifadə edirlər. Onlar sağlamlığın qorunması, profilaktik və müalicə məqsədlərilə səhiyyə xidmətlərindən yararlanır, eləcə də öz mənəvi tələbatlarını ödəmək məqsədilə həm dövlətin maliyyələşdirdiyi, həmçinin pullu sosial-mədəni sahənin əsas istehlakçılarına çevrilirlər.

Tədqiqat işində göstərilir ki, son 10 ildə ümumi istehlak xərclərinin artımı fonunda ev təsərrüfatlarının adambaşına düşən istehlak xərclərinin quruluşunda ərzaq məhsullarının payı getdikcə azalmış, (ərzaq məhsullarının strukturunda müşahidə olunan dəyişikliklər daha çox çörək və çörək məmulatlarının azalması, tərəvəz, meyvə, yumurta, ət məhsullarının, eləcə də insanların arzuolunmayan xərcləri, o cümlədən tütünə və alkoqollu içkilərə çəkdiyi xərclərin artmasında özünü göstərir), qeyri-ərzağa çəkilən xərclər isə artmışdır.

Dissertasiyada MDB ölkələri üzrə əhalinin istehlak quruluşunda son 15 ildə baş vermiş əsas dəyişikliklər də təhlil edilmişdir. İlk növbədə, qeyd etmək lazımdır ki, əhalinin qida məhsullarının alınmasına çəkilən xərcləri müntəzəm olaraq aşağı düşür. 2000-ci ildə bu xərc Azərbaycanda istehlak xərclərinin 66,3%-ni, Belarusda 59,6%-ni, Ukraynada 64,2%-ni təşkil edirdisə, 2014-cü ildə bu rəqəmlər müvafiq olaraq 40,7%, 41,6%, 55,1% kimi dəyişmişdir (cədvəl 3).

Cədvəl 3.

Ev təsərrüfatlarının istehlak xərclərinin quruluşu
(cəmi xərclərə nisbətən, faizlə)

| Ölkələr | Xərclər | | | | | | Xidmətlərin göstərilməsinə | |
|---|---|---|---|---|---|---|---|---|
| | Qida məhsulları alınmasına | | Qeyri-ərzaq malları alınmasına | | Alkoqol içkiləri alınmasına | | | |
| | 2000 | 2015 | 2000 | 2015 | 2000 | 2015 | 2000 | 2015 |
| Azərbaycan | 66,3 | 4,5 | 23,2 | 17,3 | 1,2 | 0,5 | 9,3 | 41,7 |
| Belarus | 59,6 | 41,6 | 27,1 | 35,7 | 3,5 | 2,5 | 9,8 | 20,2 |
| Qazaxıstan | 46,4 | 44,9 | 27,6 | 31,4 | 1,9 | 0,8 | 24,1 | 22,9 |
| Qırğızıstan | 54,3 | 52,6 | 28,8 | 28,5 | 1,4 | 0,2 | 15,5 | 18,7 |
| Rusiya | 49,4 | 31,9 | 34,3 | 40,1 | 2,5 | 1,7 | 13,8 | 26,3 |
| Tacikistan | 74,3 | 55,6 | 19,6 | 30,0 | 0,4 | 0,1 | 5,7 | 14,3 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Ukrayna | 64,2 | 55,1 | 17,7 | 22,7 | 1,9 | 1,7 | 16,2 | 20,5 |

Göründüyü kimi, qeyri-ərzaq mallarının alınmasına çəkilən xərclər Belarusda daha yüksəkdir. Bu da fikrimizcə, ilk növbədə onunla əlaqədardır ki, burada yerli istehsalın səviyyəsi xeyli yüksəkdir. Məsələn, rəsmi statistika məlumatlarına görə, əhalinin hər 1000 nəfərinə düşən televizor, soyuducu, paltaryuyan maşınların miqdarı Belarusda digər ölkələrdən xeyli yüksəkdir ki, bunun da əsas səbəblərindən biri həmin məhsulların bilavasitə Belarusda istehsal olunmasıdır.

Tədqiqat işində ev təsərrüfatlarının istehlak xərclərində mühüm yer tutan su, işıq, qaz və digər yanacaq növlərinə çəkilən xərclər təhlil edilir. Onu da qeyd edək ki, əhaliyə göstərilən pullu xidmətlərin təsnifatı ilə ev təsərrüfatlarının istehlak xərclərinin təsnifatında fərqlər var. Belə ki, ev təsərrüfatlarının istehlak xərclərində bu xidmət növü su, işıq, qaz və digər yanacaq növlərinə çəkilən xərclər kimi göstərilir. Əhaliyə göstərilən pullu xidmətlərin təsnifatında isə yuxarıda göstərilən xidmətlər mənzil-kommunal təsərrüfatı maddəsi altında verilir. Belə bir fərq ev təsərrüfatlarının istehlak xərclərinin dəqiq müəyyən edilməsində çətinliklər yaradır. Fikrimizcə, statistikada bu məsələ ilə bağlı elə bir təsnifat verilə bilərdi ki, konkret xidmətin real həcmini daha dəqiq müəyyən etmək mümkün olsun.

Əhaliyə göstərilən pullu xidmətlərin bir hissəsi hüquq səciyyəli və bank təşkilatlarının göstərdiyi xidmətlərlə bağlıdır. Bu xidmət növü üzrə göstərilən xidmətlər 2005-ci ildə cəmi 1,2%, 2014-cü ildə isə 6,1% təşkil edilmişdir. Mütləq rəqəmlə 2014-cü ildə əhaliyə göstərilən qeyd olunan xidmət növü üzrə xərclər 420 milyon manatdan çox olmuşdur. Müqayisə üçün qeyd edək ki, 2005-ci ildə göstərilən xidmət növü üzrə xərclər 10,8 milyon manata bərabər olmuşdur. Tədqiqat işində o da qeyd edilir ki, ev təsərrüfatları üzrə istehlak xərclərinin strukturunda yuxarıda adı hallanan xidmət növü üzrə bölgü yoxdur. Bu kimi misalları digər xidmət növləri üzrə də qeyd etmək olar. Ona görə də hesab edirik ki, əhaliyə göstərilən pullu xidmətlərin və ev təsərrüfatlarının istehlak xərclərinin təsnifatının uyğunlaşdırılması məqsədəuyğun olardı.

Aparılan hesablamalar göstərir ki, pullu xidmətlərin quruluşunda məişət xidməti, rabitə xidmətlərinin xüsusi çəkisi xeyli azalmışdır. Hər nəfərə düşən məişət xidmətləri xərcləri 90,6 (2015) manat təşkil etmişdir ki, bunun da əsas hissəsi məişət maşın və cihazlarının təmiri, texniki xidmət, metal və metal məmulatlarının təmiri və hazırlanması, vətəndaşlara mənsub olan nəqliyyat vasitələrinin təmiri və onlara texniki xidmət, mənzil təmiri və tikintisi, nəqliyyat xidməti, bərbərxana xidməti növlərinə sərf edilmişdir. Azalma səbəbləri kimi insanların daha keyfiyyətli texniki cihazlardan istifadə etməsi, eləcə də satılan cihazların bir çoxunun zəmanət müddəindən asılı olaraq təmirinin pulsuz olması da ola bilər.

Apardığımız araşdırmalardan aydın olur ki, əhalinin həyat səviyyəsi yüksəldikcə bir sıra xidmətlərə ehtiyac daha sürətlə artır. Məsələn, bədən tərbiyəsi və idman ilə bağlı pullu xidmətlər 2000-ci illə müqayisədə 8 dəfə, sanatoriya, kurort və sağlamlıq üzrə pullu xidmətlərin həcmi isə təxminən 2 dəfə artmışdır.

Ölkədə turizm, ekskursiya xidmətləri daha sürətlə artır. Respublikanın bir çox regionlarında istirahət mərkəzlərinin, müasir standartlara cavab verən hotellərinin tikilib istifadəyə verilməsi, müalicə turizminin inkişafı - Naftalan, Qalaaltı, Naxçıvan-duz, Bilgəh kardiologiya sanatoriyası, Qəbələ, Şəki, Zaqatala, Quba, Xaçmaz, Lənkəran, Astara, Gəncə-Qazax, Aran zonalarında ölkəmizin istirahət, müalicə, turizm imkanlarını xeyli genişləndirmişdir ki, bu da pullu xidmətlərin sürətlə artımını şərtləndirmişdir.

Bununla belə, apardığımız araşdırmalar bir daha sübut edir ki, pullu xidmətlərin artımı heç də bütün hallarda göstərilən xidmətlərin keyfiyyətinin də lazımi səviyyədə yüksəldildiyini təsdiq etmir. Dövlət başçısının tapşırıqlarına əsasən hazırlanan proqramlar, digər xidmət sahələrinin inkişafı ilə bağlı görülən tədbirlər, qiymətlərin tənzimlənməsi, bütövlükdə istehlak qiymətlərinin əhalinin gəlirlərinə uyğun dəyişməsi əhalinin həyat səviyyəsinin yaxşılaşmasını təmin edəcəkdir.

Dissertasiyada təhsil, digər xidmətlərlə bağlı xərclər də ətraflı təhlil edilərək göstərilir ki, təhsil xərclərinin müntəzəm olaraq artması gələcəyə qoyulan sərmayə kimi alqışlanmalı, ölkədə innovasiyalı iqtisadiyyatın formalaşmasının başlıca amillərindən biri kimi dəyərləndirilməlidir.

2015-ci ilin məlumatlarına görə, təhsil üzrə pullu xidmətlər əhaliyə göstərilən xidmətlərin 7,1%-ni təşkil etmişdir. Mütləq rəqəmlərlə bu, 529 milyon manat təşkil edir ki, 2005-ci illə müqayisədə 16,2 dəfə çox olmuşdur. Belə bir ciddi fərq ölkədə təhsil sisteminin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, özəl uşaq bağçaları, məktəblər, litseylər, ali məktəb və kolleclərin pullu xidmətlərinin son 10 ildə sürətli inkişafı ilə əlaqədardır. Lakin qeyd etmək lazımdır ki, pullu təhsil gəlirləri aşağı olan ailələrin büdcəsinə uyğun gəlmir və bir çox hallarda onların maddi vəziyyətin çətin olması baxımından bahalı və keyfiyyətli təhsil almaq imkanları məhdudlaşdırılır. Təhlil olunan dövrdə səhiyyə sahəsində göstərilən pullu xidmətlərin həcmi 30 dəfədən çox artmışdır. 2005-ci ildə səhiyyə xidmətləri bütün xidmətlərin 1,1%-ni təşkil edirdisə (10,56 milyon manat), 2015-ci ildə bu rəqəm 4,2% olmuşdur ki, bu da mütləq rəqəmlə 313 milyon manata bərabərdir. 2013-cü il 10 dekabr tarixli "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölkə ərazisində vətəndaşların tibbi dispanserizasiyasının aparılması bir çox gizli başlayan xəstəliklərin vaxtında aşkar olunması, onların müalicə və profilaktikası baxımından problemlərin həllini asanlaşdırır. Dissertasiyada o da xüsusi olaraq vurğulanır ki, 1999-cu ildə Milli Məclis tərəfindən qəbul edilmiş və 2007-ci ildə əlavə və dəyişikliklər edilmiş "Tibbi Sığorta haqqında" Azərbaycan

Respublikasının Qanununun tezliklə ölkə ərazisində tətbiqi bu məsələlərin həlli üçün geniş şərait yaratmaqla, aztəminatlı ailələrin sağlamlığını müdafiə edəcək, ölkəmizin sağlam işçi qüvvəsi ilə təminatını daha da yaxşılaşdırmağa, demoqrafik şəraitin, həyat səviyyəsinin göstəricilərinin yaxşılaşmasını təmin edəcək.

**Dissertasiyanın III fəslində əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təsir edən amillərin təkmilləşdirilməsi istiqamətləri araşdırılır.**

Əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edən mühüm amillərdən biri məşğulluqdur. Onun səviyyəsinin yüksəldilməsi yeni iş yerlərinin yaradılması, əməkhaqqının verilməsi işə qəbul edilmiş insanın həyat tərzinin dəyişməsi, fərdin ən başlıca arzularından birinin yerinə yetirilməsi deməkdir. Ona görə də bütün dünyada məşğulluq sağlam həyat tərzini təmin edən ən başlıca amillərdən biri hesab edilir. Dissertasiyada əmək bazarının mahiyyəti barədə digər iqtisadçı alimlərin baxışlarına münasibət bildirilir və qeyd edilir ki, müəyyən fikir ayrılıqlarına baxmayaraq, büövlükdə əmək bazarı, onun komponentləri barədə iqtisad elmində ümumi konsensus formalaşmışdır.

Tədqiqat işində əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri hesab edilən əmək ehtiyatları, onların quruluşu, işsizlər, fəal əhali, məşğulluq xidmətindən rəsmi işsiz statusu alanlar, muzdla işləyənlər, onların orta aylıq əməkhaqqı və s. təhlil edilir. Onların səviyyəsi və dinamikasında baş verən meyillərin əhalinin həyat səviyyəsinə təsiri ilə bağlı müvafiq qiymətləndirmələr aparılır.

İqtisadiyyatda məşğul olan əhaliyə muzdla işləyənlər və özüməşğul əhali də daxildir. Yuxarıda biz qeyd etdik ki, özüməşğulluqdan daxil olan gəlirlər ev təsərrüfatlarının gəlirlərinin əhəmiyyətli hissəsini təşkil edir. Bu istiqamətin sosial-iqtisadi əhəmiyyəti böyükdür. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "İnsanlara daha çox imkanlar yaradılmalıdır ki, onlar özləri öz məşğulluğunu təmin etsinlər. Bu məqsədlə Prezidentin ehtiyat fondundan vəsait ayrılıb. Biz birinci təcrübənin nəticələrini, yəqin ki, yaxın vaxtlarda görəcəyik. Hesab edirəm ki, öz məşğulluğunu təminetmə yanaşması üstünlük təşkil etməlidir".

2015-ci ildə ölkədə iqtisadi fəal əhalinin sayı 4 915 nəfər təşkil etmişdir ki, bu da 2005-ci ilə nisbətən 535 min nəfər çoxdur. Son 10 ildə əmək qabiliyyətli yaşında əmək qabiliyyətli əhalinin sayı 894,7 min nəfərdən çox artmışdır. Müəllif işdə bir çox iqtisadçı alimlərin məşğulluq sahəsində fikirlərini təsdiqləyərək qeyd edir ki, iqtisadi fəal əhalinin məşğulluq səviyyəsini yüksəltmək, onun sahə quruluşunu yaxşılaşdırmaq, emal sənayesini mütərəqqi, əmək tutumu yüksək olan istehsallar hesabına təkmilləşdirilmək qarşıdakı dövrdə vacib vəzifələrdən biri olacaqdır. Əmək bazarının əsas göstəricilərindən biri qadınların məşğuliyyəti hesab edilir. 2015-ci ildə ölkə iqtisadiyyatında 2,263 min nəfər qadın çalışmışdır ki, bu da cəmi məşğul olanların 48,4%-ni təşkil etmişdir. Dissertasiyada dövlət siyasətinin aparıcı

istiqamətlərindən biri sayılan işsizliyin azaldılması istiqamətində görülən işlərdən danışılır. Qeyd edilir ki, son illərdə yeni iş yerlərinin yaradılması üçün böyük işlər görülmüşdür ki, bu da onların sayının əhəmiyyətli dərəcədə aşağı salınmasını təmin etmişdir. Ölkədə son 10 ildə əmək qabiliyyətli əhalinin sayı 760,0 min nəfərdən çox artdığı halda, işsizlərin sayı 70 min nəfər azalmışdır. Onu da qeyd etmək lazımdır ki, işsizliyin azaldılması üçün vacib amillərdən biri məşğulluq xidmətlərində onların qeydə alınmasıdır.

Onu da qeyd etmək lazımdır ki, işsizliyin azaldılması üçün vacib amillərdən biri məşğulluq xidmətlərində onların qeydə alınmasıdır. Təhlil göstərir ki, orta hesabla məşğulluq xidməti strukturlarında qeydə alınmış və rəsmi işsizlik statusu alanlar cəmi işsizlərin ümumi sayının 10-12%-ni təşkil edir. Bu rəqəmin nisbətən az olmasını mütəxəssislər daha çox mənəvi amillərlə izah edirlər. Tədqiqat işində xüsusi olaraq vurğulanır ki, məşğulluq xidməti orqanlarının son illərdə fəaliyyəti xeyli genişlənmişdir. Bununla yanaşı, bu orqanların işsizlərlə qarşılıqlı münasibətlərinin təkmilləşdirilməsi, işsizlərin müraciəti əsasında onların rəsmi işsiz stasusu alma müddətinin azaldılması imkanlarından daha səmərəli istifadə edilməsi məqsədəuyğun olardı. İşsizlərin quruluşunda ali və orta ixtisas təhsilli mütəxəssislərin xüsusi çəkisinin nisbətən yüksək olması müşahidə olunur ki, bu da arzuolunmaz bir meyildir.

Fikrimizcə, əlverişli demoqrafik şəraitə malik olan respublikamızda müvafiq icra strukturlarının fəaliyyətləri qiymətləndirilərkən digər göstəricilərlə yanaşı, yaradılan yeni iş yerlərinin miqdarının nəzərə alınması məqsədəuyğun olardı.

Tədqiqat işində ev təsərrüfatının materialları əsasında həyat səviyyəsi, istehlakın quruluşu ilə təhsil səviyyəsi arasındakı əlaqənin sıx olduğu müəyyənləşdirilmiş, bir sıra hallarda ali və orta ixtisas təhsilli mütəxəssislərin əməyindən səmərəli istifadə olunmaması ilə bağlı müvafiq strukturlar tərəfindən konkret tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanmışdır.

2010-2015-ci illərdə məşğulluq xidməti orqanları xətti ilə 175 min nəfərdən çox insan işə düzəldilmiş, onlardan 30 mindən çoxu peşə təliminə göndərilmişdir. İşsiz statusu alanların 2015-ci ildə 61,4%-ni kişilər, 38,6%-ni qadınlar təşkil etmişdir.

Tədqiqat işində respublikada məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə əməkhaqqının səviyyəsinin müqayisəli təhlili aparılır və göstərilir ki, ən yüksək əməkhaqqı mədənçıxarma, maliyyə, sığorta, informasiya və rabitə, tikinti sahələrindədir. Kənd təsərrüfatında məşğul olan əhalinin hər nəfərinə düşən pul gəlirləri isə nisbətən aşağıdır.

Müəllif belə hesab edir ki, kənd təsərrüfatı məhsulları istehsalının artması ilə bağlı ölkədə həyata keçirilən tədbirlər aqrar sektorda çalışanların gəlirlərinin artmasına müsbət təsir göstərəcəkdir.

2015-ci ildə respublikada iqtisadiyyatın sahələrinə 212,3 min işçi qəbul olunmuşdur. Ən çox işçi emal sənayesinə, tikintiyə, ticarət, nəqliyyat

vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı, peşə, elm və texnika, təhsil fəaliyyətinə qəbul edilmişdir. Həmin ildə 200 mindən çox adam işdən çıxmışdır. Bu kimi halların minimuma endirilməsi məqsədilə əlavə tədbirlərin görülməsi, insanların işdən çıxarılması, ixtisara salınması məsələlərinə daha həssaslıqla yanaşılmalıdır.

Çünki hər bir işçinin ixtisarı onun gəlirlərinin azalması, iş tapana qədərki dövrdə üzləşəcəyi çətinliklər üçün çəkəcəyi mənəvi sarsıntılar keçirməsi deməkdir. Ona görə də əhalinin həyat səviyyəsi, onun istehlakı, sağlamlığı məşğulluq səviyyəsindən, onun aldığı əməkhaqqından bilavasitə asılı olduğu üçün bu amillər həmişə diqqətdə saxlanılmalıdır.

Müasir dövrdə də əhalinin həyat səviyyəsinə təsir edən amillər içərisində əlverişsiz əmək şəraitində işləyənlərin sayı, onların əməkhaqqı sistemi mühüm məsələ kimi diqqət mərkəzində olmalıdır. Bu baxımdan dissertasiyada əməyin mühafizəsi, təhlükəli istehsal və xidmət şəraitində çalışan işçilərin sayı, onun sahə quruluşunu xarakterizə edən materiallar təhlil edilir və xüsusi olaraq vurğulanır ki, bu məsələ keyfiyyətli həyat səviyyəsi, onun sağlamlığı ərzaq istehlakının quruluşunun yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edən amillərdən biridir.

Sovetlər dövründə İttifaq hökuməti respublikamızın ərazisində (Bakıda, Sumqayıtda) çoxlu sayda istər ekoloji, istərsə də əlverişsiz əmək şəraiti ilə fərqlənən müəssisələr yerləşdirmişdi ki, bunun da acı nəticələri kifayət qədər idi, ilk növbədə peşə xəstəliklərinin sayı çoxalmışdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu sahədə mühüm nailiyyətlər əldə edilmiş, zərərli iş şəraiti, zərərli tullantıların miqdarı xeyli azalmışdır.

2015-ci ildə sanitariya-gigiyena normalarına cavab verməyən şəraitdə işləyənlərin sayı əvvəlki illərə nisbətən əhəmiyyətli dərəcədə azalaraq 40 min nəfərə yaxın olmuşdur ki, onun da 15 min nəfəri sənayendə işləyənlərin payına düşür. Əlverişsiz əmək şəraitində çalışanların 10%-ni qadınlar təşkil edir ki, bu da əvvəlki dövrlərə nisbətən əhəmiyyətli dərəcədə aşağıdır. Bununla belə, bu sahədə nəzarət mexanizmi və müvafiq kompensasiyaların verilməsi, səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması, sağlam qidalanmanın təmin edilməsi ən vacib vəzifələrdən biridir (cədvəl 4).

Tədqiqat işində Azərbaycan Dövləti tərəfindən əhaliyə göstərilən sosial yardımın və xidmətin miqyası istiqamətləri barədə konkret araşdırmalar aparılmışdır. Bu gün ölkədə qabaqcıl dünya təcrübəsindən bəhrələnən sosial yardım sistemi formalaşmış, onun güclü qanunvericilik bazası yaradılmışdır.

Ünvanlı sosail yardımın əlçatanlığının təmin edilməsi üzrə tədbirlərin davam etdirilməsində ASAN xidmət mərkəzinin xidmətlərindən geniş istifadə edilməsi hamı tərəfindən müsbət addım kimi qiymətləndirilir. Dissertasiyada ünvanlı dövlət sosial yardım sisteminin təminatı, minimum əməkhaqqı, pensiyaların orta məbləğinin dinamikasında baş verən müsbət meyillərin davamlılığına, yoxsulluğun azalmasına təsirini müəyyən etməyə əsas verən elmi-statistik hesablamalar təhlil edilir.

Dövlətin bu məsələyə sistemli yanaşması bir daha təsdiq edir ki, ünvanlı sosial yardımın həyata keçirilməsinin icra mexanizmləri təkmilləşdirilməli, bu məqsədlə mütəmadi olaraq ev təsərrüfatı üzrə sorğuların, müşahidələrin aparılması işinin keyfiyyətinin yüksəldilməsi, ev təsərrüfatının məşğulluqdan daxil olan gəlirlərinin daha sürətli artırılması imkanları genişləndirilməlidir.

Cədvəl 4.

İşləyən əhaliyə dövlət tərəfindən verilən ayrı-ayrı müavinətlər

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|
| Uşağın anadan olmasına görə birdəfəlik müavinət: | | | | | |
| şəxslərinsayı, min nəfər | 40,4 | 45,5 | 49,0 | 49,8 | 53,9 |
| məbləğ, min manat | 3 239,2 | 3620 | 4 153,5 | 4 419,2 | 4 818,5 |
| 3 yaşına çatmayan uşaqlara qulluqla əlaqədar müavinət: | | | | | |
| şəxslərin sayı, min nəfər | 39,3 | 41,8 | 38,7 | 38,2 | 37,0 |
| məbləğ, min manat | 5 086,6 | 5182,5 | 5 805,0 | 7 371,8 | 8 174,6 |
| Dəfn üçün müavinət: | | | | | |
| şəxslərin sayı, min nəfər | 40,2 | 39,9 | 39,5 | 41,5 | 41,4 |
| məbləğ, min manat | 10 027,7 | 9934,8 | 10 278,4 | 12 199,0 | 12 242,0 |

Əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm göstəricilərdən biri yaşayış minimumu hesab edilir.

Müəllifin fikrincə, əhalinin istehlak səbətinin, yaşayış minimumunun yaş qruplarına görə nəzərə alınmaqla müəyyən edilməsi davam etdirilməlidir. Dissertasiyada ölkə üzrə pensiyaların son illərdə müntəzəm olaraq artması sosial siyasətin uğurlu nəticələrindən biri kimi qiymətləndirilir.

Regionlar üzrə işləyən pensiyaçıların xüsusi çəkisinin fərqli olması səbəbləri araşdırılır. Regionlar üzrə bu nisbət xeyli müxtəlifdir. Məsələn, Bakı şəhəri üzrə işləyən pensiyaçılar cəmi pensiyaçıların 20%-ni, Abşeron iqtisadi rayonunda 13,2%-ni, Lənkəran iqtisadi rayonunda isə 5,5%-ni təşkil etmişdir. Regionlar, həmçinin təyin olunmuş pensiyaların orta aylıq məbləğinə görə bir-birindən fərqlənir. Məsələn, bu məbləğ Bakı şəhərində 238,6 manat, Quba-Xaçmaz zonasında 152,2 manat, Gəncə-Qazax zonasında 156,2 manat təşkil etmişdir.

Digər iqtisadi rayonlarda da pensiyanın orta məbləği 150-160 manat arasında tərəddüd edir. Regionlar üzrə pensiyanın orta məbləğinə pensiyaçıların çalışdığı sahələrdə əməkhaqqının səviyyəsi bilavasitə təsir edir.

Müəllif belə qənaətə gəlir ki, regionlar üzrə pensiyaların orta həcmindəki fərqlərin yumşaldılması məqsədilə şəhər və rayonlarda yüksək əmək

haqqı ilə fərqlənən istehsal və xidmət sahələrinin yaradılması, ixtisaslı əməyin qiymətləndirilməsi meyarlarının təkmilləşdirilməsi məqsədəuyğun olardı.

Tədqiqat işində ölkəmiz üçün yeni sayılan sosial xidmətin təşkili geniş şərh edilərək bildirilir ki, sosial xidmətin göstərilməsi çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial xidmətlərə olan tələbatının sosial işçi tərəfindən qiymətləndirilməsi və müəyyən edilməsi əsasında həyata keçirilir. Eyni zamanda, qeyd edilir ki, sosial xidmət qanunla müəyyən edilmiş qaydada dövlət büdcəsinin vəsaiti, ödənişli əsaslarla sosial xidmət göstərilməsindən əldə olunan vəsaitlər, hüquqi və fiziki şəxslərin ianələri, qrantlar, eləcə də qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir. Bu istiqamətlərə ayrılmış büdcə vəsaitlərinin ildən-ilə artacağını, sosial xidmət sektorunun formalaşmasının labüd olduğunu və bu sektorun məşğulluğun artmasında müəyyən rol oynayacağını nəzərə alaraq, sosial xidmətdə uçot, statistikanın təkmilləşdirilməsi məsələlərinə diqqətin artırılması məqsədəuyğun olardı.

Tədqiqat işinin yerinə yetirilməsi prosesində apardığımız elmi araşdırmalar və statistik, tibbi-statistik materialların təhlilindən aydın olur ki, qida sənayesinin sürətli inkişafı istehlakın keyfiyyətinə təsirsiz ötüşməmişdir. Ona görə də əhalinin istehlak quruluşunun qiymətləndirilməsində vacib məsələlərdən birini insanların əldə etdiyi məhsulların keyfiyyət tərkibi barədə biliklərinin genişləndirilməsi, maarifləndirmə işinin aparılması, istehlakçıların hüquqlarının qorunması təşkil edir.

Qeyd etməliyik ki, respublikamızda istehlakçı hüquqlarının müdafiəsinə dair xeyli işlər görülmüşdür: istehlakçı hüquqlarının bütün sahələrinə dair qanunvericilik aktları, o cümlədən "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası qanunları və digər normativ sənədlər qəbul edilmiş, müvafiq nəzarət strukturları yaradılmışdır.

Məlumdur ki, dövlət nəzarətinin təsiri o zaman səmərəli olur ki, eyni zamanda, istehlakçılar da öz hüquqlarını bilsinlər və pozulmuş hüquqlarını bərpa etmək uğrunda mübarizə aparmağı bacarsınlar. İstehlakçıların hüquqlarının qorunması təkcə ərzaq bazarı ilə bitmir. Bu hüquqlar bütün istiqamətlərdə qorunmalıdır. İnsanların işlə təminatı, işsiz kimi qeydiyyata alınması, haqsız işdən çıxarılma səbəblərinin bildirilməsi və s. bu kimi hallar istehlakçıların tam hüquqlarıdır və bütün bunlar müvafiq qanunla tənzimlənirlər.

Ona görə də işçilərin ixtisarı, əmək qanunvericiliyinin pozulması, bazara keyfiyyətsiz, insanların sağlamlığı üçün təhlükə yaradan məhsulların çıxarılmasına məsul olan fiziki və hüquqi şəxslərə qarşı qanunvericiliklə müəyyən edilmiş tədbirlər görülməsi aktual məsələ olaraq həmişə diqqət mərkəzində olmalıdır.

Tədqiqat işində insanların keyfiyyətli həyat səviyyəsinin təmin edilməsində sağlam qidalanmanın rolu nəzərdə keçirilir, ona olan tələblər fizioloji normalar baxımından əsaslandırılır. Bildirilir ki, insanların istehlak strukturunun əsasını təşkil edən ərzaq məhsulları ilə təmin olunması həyat fəaliyyətinin davam etdirilməsi və iş qüvvəsinin təkrar istehsalı üçün ən vacib şərtdir. Problemə tibbi nöqteyi-nəzərdən yanaşdıqda görürük ki, fizioloqların, dietoloqların illər uzunu apardığı təcrübələrdə təsdiq etdiyi meyarlar bu gün də əsas götürülür. Doğrudur, qida rasionu zaman keçdikcə çoxsaylı amillərin qarşılıqlı təsirlərinə də məruz qalır və dəyişir. Coğrafi, ekoloji, sosial və iqtisadi amillər – gəlirlər, ərzaqların qiyməti, fərdi olaraq bu və ya digər qida növlərinə üstünlük vermə, dini inanclar, mənəvi dəyərlər, həyat tərzinin müxtəlifliyi - bütün bunlar mürəkkəb qarşılıqlı əlaqədədir və fərdi qidalanma modelini formalaşdırır.

Qidalanma, ilk növbədə fizioloji tələbatların ödənilməsi insan orqanizmində fəaliyyətdə olan üzvlərin və sistemlərin normal işləməsi üçün vacib şərtdir. Düzgün və rasional qidalanmaya riayət edilməsi isə onların fəaliyyət müddətini davamlı və qüsursuz etmiş olur. Düzgün qidalanmanın tələblərinə əməl etmək insanlardan bilik və savadla yanaşı, buna kifayət edə biləcək büdcəyə malik olmanı da tələb edir.

Ev təsərrüfatlarının qida məhsullarına çəkdiyi xərclərin bütövlükdə artması onların daha keyfiyyətli və faydalı qidalara üstünlük verməsinə şərait yaradır. Bununla belə, müasir tibb elmi və təcrübəsi bütün istehlak olunan qida məhsullarının sağlamlıq baxımından normal olduğunu deməyə əsas vermir. Ev təsərrüfatının xərclərinin bir sıra hallarda düzgün istiqamətə yönəldilməməsi, zərərli vərdişlər və sağlamlığa ziyan vuran qidaların çoxalması ictimai problem olaraq narahatlıq doğurur. Statistik məlumatlara, konkret elmi araşdırmalara əsaslanaraq deyə bilərik ki, son illərdə hər bir orta yaşlı insanın istehlak etdiyi ərzağın miqdarı norma olaraq qəbul edilmiş 2200-2500 kkaloridən bir qədər çoxdur. Lakin qeyd etmək vacibdir ki, son zamanlar insanların fiziki aktivliyinin aşağı düşməsi fonunda qida maddələrini fizioloji normadan artıq qəbul etməsi getdikcə daha ciddi fəsadlara yol açır. Bu həm sağlamlıq nöqteyi-nəzərdən zərərlidir, həm də maddi baxımdan izafi xərclərin çoxalmasına və istehlak büdcəsinin səmərəliliyinin azalmasına gətirib çıxarır. Məhz bu məsələlərin həlli üçün bir sıra iqtisadçılar, dietoloqlar və digər tibb mütəxəssisləri haqlı olaraq hesab edirlər ki, büdcə tədqiqatlarının əhatə dairəsini genişləndirmək, qida məhsullarının normalar üzrə qruplaşdırılmasında istehlak səbətinin formalaşdırılması prosesində tibb elminin tövsiyələrini nəzərə almaq lazımdır.

Əhalinin istehlak xərclərinin quruluşuna təsir edən amillər arasında ev təsərrüfatının kəmiyyət, yaş-cins tərkibinin dəyişməsi də mühüm rol oynayır. Məsələn, ev təsərrüfatının bir və ya bir neçə nəfərdən ibarət olması vəziyyəti dəyişdirir. Ailənin böyük olduğu şəraitdə qida məhsullarına xərclənən hissə azalır.

Bunun mühüm səbəblərindən biri də odur ki, ev təsərrüfatları öz təsərrüfatlarında istehsal etdiyi ərzaq məhsullarından natural şəkildə istifadə edirlər. Əgər bu, mümkün deyilsə, o zaman qida rasionuna məcburi dəyişiklik edərək, daha ucuz əvəzləyici ərzaqları əldə edib istehlak edirlər.

Ərzaq məhsullarına çəkilən ümumi xərclərin azalmasının mənfi nəticələrindən biri də odur ki, bu, özünü qidanın keyfiyyət tərkibində göstərir: qida rasionunda meyvə, ət və ət məhsulları azalır, çörək və çörək məhsulları, kartof, tərəvəzlər isə artır. Nəticədə, insanların gündəlik qəbul etməsi tövsiyə olunan ərzaq məhsullarının fizioloji normasına riayət edilmir ki, bunun da sağlamlıq üçün arzuolunmaz nəticələri ciddi fəsadlar törədə bilər.

Mənfəət əldə etmək məqsədilə günbəgün şəbəkəsi genişlənən şirniyyat dükanları, ayaqüstü yeməkxanalarda verilən və bir sıra hallarda mənşəyi və tərkibi məlum olmayan, tez bişirilən qida çeşidləri vaxta qənaət baxımından cəlbedici olsalar da, artıq xərc mənbəyi, həm də fizioloji olaraq zərərli fəsadlarına görə yolverilməz hesab edilir və ona görə də bu sahəyə ictimai, tibbi nəzarətin güclənməsi obyektiv zərurətdir.

Son illərdə əhali tərəfindən istehlak olunan ərzaq məhsullarının artması, qida rasionunun quruluşunu dəyişdirərək, onun tərikibini daha rasional və çoxkalorili maddələrlə-zülallar (77,1 qram), yağlar (78,50 qram), karbohidratlarla (460,6 qram) zənginləşdirilmişdir. Əhali tərəfindən istehlak olunmuş ərzaq məhsullarının tərkibində zülal, yağ və karbohidratların səviyyəsi aşağıdakı kimi olmuşdur (cədvəl 5).

Cədvəl 5.

2015-ci ildə əhalinin istehlak etdiyi ərzaq məhsullarının tərkibində zülal, yağ və karbohidratların səviyyəsi

| | Ölkə üzrə cəmi | Şəhər yerləri | Kənd yerləri |
|---|---|---|---|
| Zülallar, qram | 77,1 | 77,51 | 76,49 |
| Heyvan mənşəli zülallar, qram | 30,47 | 30,28 | 30,7 |
| Bitki mənşəli zülallar, ram | 46,5 | 47,3 | 45,8 |
| Yağlar, qram | 78,50 | 79,37 | 77,52 |
| Heyvan mənşəli yağlar, qram | 39,78 | 40,22 | 39,19 |
| Bitki mənşəli yağlar, qram | 38,4 | 38,9 | 38,1 |
| Karbohidratlar, qram | 460,66 | 460,77 | 460,54 |
| Heyvan mənşəli k/h-lar, qram | 6,62 | 6,15 | 7,14 |
| Bitki mənşəli k/h-lar, qram | 454,1 | 454,2 | 454,0 |
| Qidanın kaloriliyi, kkal | 2946,6 | 2834,4 | 2969,30 |

Sağlam qidalanmaya iqtisadi nöqteyi-nəzərdən yanaşdıqda, əksər insanların, yəni hər kəsin əldə edə biləcəyi qida məhsullarının istehlakı nəzərdə tutulur.

Dissertasiyada ölkəmizdə səhiyyənin əsas göstəriciləri, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, dövlət büdcəsindən səhiyyənin inkişafına ayrılan vəsaitlər, xəstəliklərin quruluşunda baş verən dəyişiklilər araşdırılır.

Müəllifin fikrincə, sağlam qidalanmaya əlverişli şəraitin yaradılması üçün səmərəli tədbirlər sistemi formalaşdırıla bilər ki, buraya da aşağıdakıları daxil etmək olar:

- ekoloji təmiz meyvə və tərəvəzlərin yetişdirilməsi, istifadəsi və satışı ilə məşğul olan istehsalçıları və pərakəndə ticarətçiləri stimullaşdırmaq;
- qidaların tərkibinin duz, doymuş yağlar və sərbəst şəkərin azaldılması istiqamətində dəyişdirilməsinə çalışmaq;
- Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsilə uşaqlar üçün nəzərdə tutulmuş qida məhsullarının və alkoqolsuz içkilərin marketinqini aparmaq;
- məktəbəqədər müəssisələrdə və məktəblərdə, eləcə də dövlət müəssisələrində və digər iş yerlərində münasib qiymətlərə sağlam və təhlükəsiz qidanın təklif olunmasının standartlarını tətbiq etmək;
- sağlam qida ilə təminat sahəsində bir sıra iqtisadi stimullar tətbiq etmək (güzəştli vergilərin tətbiqi, sahibkarlara subsidiyaların verilməsi və s.), yerli idxal olunan qida məhsullarının keyfiyyətini yüksəltmək və sağlam qidaların qiymətlərinin əlçatan olmasını təmin etmək, qidaların porsiyalarına və qiymətlərinə dünyada özünü doğrultmuş tənzimlənmə mexanizmlərini tətbiq etmək;
- istehlakçıların tələbinin sağlam qidalara və onlardan hazırlanan yeməklərə yönəldilməsini stimullaşdırmaq, istehlakçıların (yaş qruplarına müvafiq) sağlam qidalar haqqında biliklərini artırmaq;
- məktəblər üçün uşaqlara sağlam qidanı seçmək və satış nöqtələrində qida maddələrinin tərkibində olan maddələrin dəqiq göstəriciləri haqqında məlumata malik olmaq, qidalanma və rasion məsələləri ilə, eləcə də ilk tibbi yardım göstərilməsi ilə bağlı məsləhətlər təşkil etmək;
- yeni doğulmuş və südəmər dövrdə uşaqların qidalanma məsələləri ilə bağlı, eləcə də ana südünün əvəzləyicilərini beynəlxalq qaydada təşkil etmək, işləyən anaların müdafiəsinə yönələn siyasət və təcrübi metodlar hazırlamaq;
- əhalinin qida məhsulları ilə təmin edilməsi proqnozları hazırlanarkən yerli, ekoloji cəhətdən təmiz məhsullar istehsalının daha sürətlə artırılması imkanlarının reallaşdırılması, daxili bazarın qorunması üçün beynəlxalq təcrübədə özünü doğrultmuş iqtisadi mexanizmlərdən istifadə edilməsinə üstünlük verilməsi;
- bazara təqdim edilən (daxil olan) qida məhsullarının sağlam qidalanma meyarlarına uyğun olub-olmamasını qiymətləndirmək məqsədilə müvafiq qanunların icrası ilə bağlı müntəzəm monitorinqlərin aparılması, bu işin KİV-də, internet resurslarında işıqlandırılması, əyani vəsaitlərdən istifadə imkanlarının genişləndirilməsi.

Xüsusi olaraq vurğulanır ki, əhalinin sağlamlığının qorunmasına xidmət edən bir sıra proqramların dövlət səviyyəsində icrasının təsdiqi və onların

icrasının ciddi nəzarətə götürülməsi, ölkədə qeyri-infeksion xəstəliklərin, ana və uşaqların sağlamlığının qorunması, yaşlı insanlara sosial xidmətin təşkili, əhalinin icbari dispanserizasiyası və s. kimi irimiqyaslı tədbirlər ölkədə əlverişli demoqrafik şəraitin davamlı olmasına, uzunömürlülüyün təmin olunmasına əhalinin sağlamlığını xarakterizə edən göstəricilərin yaxşılaşmasına öz müsbət təsirini göstərəcəkdir.

İşdə yekun olaraq bildirilir ki, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması Azərbaycan dövlətinin ali məqsədi hesab edilir. Yaxın və uzaq perspektiv üçün nəzərdə tutulan iqtisadi inkişaf proqramlarının reallaşdırılması, aparılmış iqtisadi islahatların dərinləşməsi ilə bağlı həyata keçirilən bütün tədbirlərin sosial-iqtisadi nəticələri ölkəmizi yeni inkişaf səviyyəsinə qaldıracaq. Bunun üçün ən mühüm şərtlərdən biri də qəbul edilmiş qanunların tam icra edilməsi, insan hüquqlarının qorunmasına xidmət edən bütün normativ aktların cəmiyyətdə daha geniş təbliğinin təmin olunmasıdır.

Dissertasiya işinin sonunda aparılan tədqiqata dair dəyərli nəticələr verilmiş, elmi və təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr irəli sürülmüşdür.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**


1. Azərbaycan XXI əsrin astanasında. Elmi-praktik konfransının materialları, III cild. Ana və uşaqların müdafiəsinin tibbi-sosial problemləri. Bakı, 1998, 447-448 s., 750 s.
2. M.S.Qasımov, İ.P.Əhmədov, A.Z.Səmədzadə, S.A.Gürzəliyev, S.İ.Səfərova, N.Q.Süleymanzadə. Azərbaycanda orta ümumi təhsilin yeniləşdirilməsi və maarifləndirmə texnologiyasının tibbi-gigiyenik cəhətləri (Metodik tövsiyələr). Bakı, 2007, “Qismət”, 135 s.
3. İstehlak fondu, Böyük İqtisadi Ensiklopediya (BİE), III cild, Bakı, 2012, 82-83 s., 606 s.
4. İstehlak malları, İstehlak mallarının qiyməti, Böyük İqtisadi Ensiklopediya (BİE), III cild, Bakı, 2012, 85-91 s., 606 s.
5. Səhiyyə iqtisadiyyatı, Böyük İqtisadi Ensiklopediya (BİE), IV cild, Bakı, 2012, 397-403 s., 704 s.
6. Ticarət (Pərakəndə əmtəə dövriyyəsinin və pullu xidmətlərin iqtisadi rayonlar üzrə dinamikası), Böyük İqtisadi Ensiklopediya, (BİE) V cild, Bakı, 2012, 139-143 s., 629 s.
7. Zəhərli tullantılar, Böyük İqtisadi Ensiklopediya (BİE) III cild, Bakı, 2012, 99 s., 606 s. VII cild, Bakı,657-659 s., 667 s.
8. Qasımov M.S., Namazova A.A., Qasımova K.N., Səmədzadə A.Z. “Sağlam qidalanmanın elmi əsasları”. Bakı, 2014, 748 s.

9. İstehlak seçimi, Böyük İqtisadi Ensiklopediya, VI cild, Bakı, 2015, s.685-687.

10. M.S.Qasımov, S.A.Gürzəliyev, A.Z.Səmədzadə. “Məktəblilərin gigiyena və sağlamlıq üzrə biliyini artırmaq üçün” (Dərs vəsaiti), ikinci nəşr. “Nurlar”, Bakı, 2016, 215 s.

11. Ev təsərrüfatlarının gəlirləri və onların strukturu. “Kooperasiya” elmi-praktiki jurnal N2 (41) Bakı, 2016, 66-71 s. 235 s.

12. Ölkələrin iqtisadi inkişaf səviyyəsi və əhalinin istehlakı. Təfəkkür elmi xəbərlər jurnalı, N3 (12) “Oskar” NPM, Bakı, 2016, 18-27 s., 120 s.

13. Ev təsərrüfatlarının istehlak xərclərinin və əhaliyə göstərilən pullu xidmətlərin dinamikasının qiymətləndirilməsi. Azərbaycan vergi xəbərləri jurnalı N4, “CBS Polygraphic Production” Bakı, 2016, 212 s.

14. Некоторые вопросы анализа взаимосвязи между экономическим развитием и доходами населения Tbilisi,“Ekonomisti” №2, 2016, 90-95 с.



## Резюме
## Айтен Зияд кызы Самедзаде

## Структура потребления населения и социально-экономические факторы ее улучшения

В диссертации рассматриваются актуальные вопросы сложившегося уровня жизни населения, тенденции и изменения в структуре потребления. Подчеркивается важность исследования теоретических и методологических аспектов уровня жизни, потребительских расходов домашних хозяйств, доходов и расходов.

Во введении обоснована актуальность темы, определены цели и задачи, научная и практическая значимость диссертации.

В первой главе освещаются теоретические вопросы потребления, подчеркивается необходимость системного подхода к ее изучению. На конкретных материалах анализирована динамика и структура потребительского рынка в республике, исследованы динамика потребительских цен и их влияние на повышение уровня жизни населения. Дается оценка потребительского рынка и его основных параметров, анализируется динамика цен и их влияние на структуру потребления населения.

Вопросам улучшения структуры потребления как важному направлению роста уровня жизни посвящена вторая глава диссертации. В ней исследуются источники доходов населения, показатели рынка труда, возрастно-половой состав домохозяйств. Дается сравнительный анализ основных показателей домашних хозяйств по странам СНГ и Европы.

Анализу факторов, влияющих на повышение уровня жизни населения посвящена третья глава диссертации. В ней подчеркивается важность государственного регулирования цен на основные продукты питания, изыскание новых возможностей роста трудовых доходов населения, обеспечение рациональной занятости, рассматриваются резервы увеличения производства экологически чистых продуктов, укрепление основ здорового питания, защиты прав потребителей. Обозначены основные приоритеты и пути повышения уровня жизни населения республики.

В заключении обобщены результаты данного исследования, выдвинуты выводы и соответствующие предложения, представляющие определенный научно-практический интерес.

## Summary
## Ayten Ziyad Samedzade

## Structure of consumption of the population and socio-economic factors of its improvement

In the thesis topical issues of level of living of the population, a tendency of change in structure of consumption are considered. Importance of a research of theoretical and methodological aspects of level of living, consumer spending of households, the income and expenses is emphasized.

Relevance of a subject, particular purposes and tasks, the scientific and practical importance of the thesis is proved in introduction.

In chapter 1 theoretical questions of consumption are taken up, need of system approach to its studying is emphasized. On specific materials dynamics and structure of the consumer market in the republic is analyzed, dynamics of consumer prices and their influence on increase in level of living of the population is researched. An assessment of the consumer market and its key parameters is given, the price performance and their influence on structure of consumption of the population is analyzed.

As to the important direction of growth of level of living thesis chapter 2 is devoted to questions of improvement of structure of consumption. In this section of work sources of the income of the population, labor market indicators, age and sex structure of households are researched. The comparative analysis of the main indicators of households on the CIS countries and Europe is given.

The thesis chapter 3 is devoted to the analysis of the factors influencing increase in level of living. In it importance of state regulation of the prices of main products of food, research of new opportunities of growth of labor earnings of the population, ensuring rational employment is emphasized. Allowances of increase in production of environmentally friendly products, strengthening of bases of healthy food, consumer protection are considered.



Kağız formatı (210x297) 1/4
Kağız №1, uçot çap vərəqi 1,0 ç.v.
Sifariş №085, tiraj 100

**Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi**

Rezoqrafiya üsulu ilə çap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**САМЕДЗАДЕ АЙТЕН ЗИЯД кызы**

# СТРУКТУРА ПОТРЕБЛЕНИЯ НАСЕЛЕНИЯ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ФАКТОРЫ ЕЕ УЛУЧШЕНИЯ

**5304.01 – «Виды экономической деятельности»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание научной степени
доктора философии по экономике

**Гянджа - 2016**